1919

BDU

# BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

# ВЕСТНИК БАКИНСКОГО УНИВЕРСИТЕТА

# NEWS OF BAKU UNIVERSITY

ISSN 1609-0586

## SOSİAL-SİYASİ
*elmlər seriyası*

## СЕРИЯ
*социальных-политических наук*

## SOCIAL-POLITICAL
*sciences series*

2

2005

# MÜNDƏRİCAT

## HÜQUQ

**Qasımov A.**
MDB üzvü olan dövlətlərdə əvəzçilik üzrə işin hüquqi tənzimlənməsi: müqayisəli təhlil .............................. 5
**Bayramov E.R.**
XIX əsrin birinci yarısında Rusiyada siyasi və hüquqi ideologiyanın bəzi problemləri .............................. 14
**Səmədova Ş.T.**
Beynəlxalq Cinayət hüququ prinsiplərinin sistemi.............. 27
**Hüseynova K.E.**
Cinayət prosesində sübutların mümkünlüyü...................... 37
**Sadıxov M.**
Məhkəmə icraatının ilkin mərhələsində cinayət təqibi üzrə insan hüquq və azadlıqlarının təmin edilməsi.............. 44
**Abbaslı M.A.**
Cinayət prosesində mülki iddia və mülki iddiaçı................ 49
**Sayadov F.**
Quldurluqda qəsdə məruz qalan obyektin xüsusiyyətləri ... 61
**Quliyev M.R.**
Siyasi rejim anlayışı məsələsinə dair.............................. 66
**Bəktaşi S.İ.**
Məhkəmə hakimiyyəti anlayışı və onun əlamətləri ............ 74
**İmanov M.N.**
Mütəşəkkil dəstə tərəfindən terrorçuluq cinayətinin törədilməsi ağırlaşdırıcı hal kimi .............................. 84
**Cabbarov Z.Z.**
Orta əsrlərdə Azərbaycanda hüquq mənbələrinin əsas cəhətləri .............................................................. 93

## İQTİSADİYYAT

**Aslanov H.H.**
Azərbaycanın beynəlxalq neft layihələrinin iqtisadi reallaşması və dünya təsərrüfat əlaqələrində onun rolu ...... 108
**Şamilova H.S.**
Keçid iqtisadiyyatı şəraitində Azərbaycanda əhalinin sosial müdafiəsinin səmərəlilik meyarları .............................. 120

**Paşayev R.T., Əyyubova N.S.**
Büdcənin tarazlı formalaşma modelinin işlənməsi
məsələləri ............................................................................129
**Məcidova S.M.**
«Mən-Konsepsiya»nın eкsperimental tədqiqi .......................135

## FƏLSƏFƏ, PSİXOLOGİYA

**Şəfiyeva E.İ.**
Zabitlərin döyüş-təlim hazırlığına təsir edən destruкtiv
psixi halların səciyyəsi... ..................................................149
**Bəşirov R.İ., Məmmədov Ə.B.**
Elmi inqilablar və rasionallığın tarixi tipləri:
məntiqi-qnoseoloji təhlil ....................................................159
**Haşımova S.S.**
Şəxsiyyətin tipologiyası haqqında .......................................167

## PEDAQOGİKA

**Mahmudova R.M.**
Ali məкtəb mühazirəsinin səmərəli təşкili şərtləri ..............178

## NEKROLOQ

Əsrə bərabər ömür ..............................................................185

# СОДЕРЖАНИЕ

## ПРАВО

**Касумов А.**
Правовое регулирование работы по совместительству в государствах-участниках СНГ ........ 5
**Байрамов Э.Р.**
Некоторые проблемы политической и правовой идеологии в России в первой половине XIX в ........ 14
**Самедова Ш.Т.**
Система принципов международного уголовного права ........ 27
**Гусейнова К.Э.**
О допустимости доказательств в уголовном процессе ........ 37
**Садыхов М,**
Обеспечение прав и свобод человека по уголовному преследованию на начальной стадии судебного производства ........ 44
**Аббаслы М.А.**
Гражданский иск и гражданский истец в уголовном процессе ........ 49
**Саядов Ф.**
Особенности объекта посягательства при разбое ........ 61
**Гулиев М.Р.**
К вопросу о понятии политического режима ........ 66
**Бекташи С.И.**
Понятие и признаки судебной власти ........ 74
**Иманов М.Н.**
Совершение террористического преступления организованными группами как осложняющее обстоятельство ........ 84
**Джаббаров З.З.**
Основные черты источников права в Азербайджане в средних веках ........ 93

## ЭКОНОМИКА

**Асланов Г.Г.**
Экономическая реализация международных нефтяных проектов Азербайджана и их роль в мировых хозяйственных отношениях ........ 108

**Шамилова Г.С.**
Критерии эффективности социальной защиты населения в Азербайджане в условиях переходной экономики ........................ 120
**Пашаев Р.Т., Эюбова Н.С.**
Задачи разработки модели сбалансированного бюджета.................. 129
**Меджидова С.М.**
Экспериментальное исследование «Я-концепции» ........................... 135

## ФИЛОСОФИЯ, ПСИХОЛОГИЯ

**Шафиева Э.И.**
Характеристика деструктивных психических состояний в процессе учебно-боевой подготовки офицеров................................ 149
**Баширов Р.И., Мамедов А.Б.**
Исторические типы научных революций и рациональности: логический и гносеологический анализ ............................................... 159
**Гашымова С.С.**
О типологии личности ............................................................................ 167

## ПЕДАГОГИКА

**Махмудова Р.М.**
Условия рациональной организации лекций в ВУЗ-ах ..................... 178

## НЕКРОЛОГ

Жизнь в величиной в столетие.............................................................. 185

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2005

# MƏHKƏMƏ HAKİMİYYƏTİ ANLAYIŞI VƏ ONUN ƏLAMƏTLƏRİ

S.İ.BƏKTAŞİ

*Təqdim olunmuş məqalədə məhkəmə hakimiyyəti çoxşaxəli bir hadisə kimi təhlil olunur. Qeyd olunur ki, belə yanaşma məhkəmə hakimiyyətinin mahiyyətini, onun dövlət hakimiyyət budaqları sistemində yerini və statusunu hərtərəfli araşdırmağa imkan verir. Sübut olunur ki, yalnız güclü və müstəqil məhkəmə hakimiyyəti hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasının mühüm təminatıdır, çünki o nəinki dövlət hakimiyyətinin digər qollarını nizamlayır və tarazlaşdırır, həm də onlar tərəfindən insan hüquq və azadlıqlarına riayət edilməsinə nəzarət, vətəndaş barışığının bərqərar olunmasına xidmət edir.*

Azərbaycan Respublikasında məhkəmə islahatı konsepsiyası dövlət mexanizmində məhkəmə hakimiyyətinin öz fəaliyyətində qanunverici və icra hakimiyyətindən asılı olmayan müstəqil qüvvə qismində təsdiq edilməsini özünün əsas vəzifələrindən biri kimi irəli sürüb.

1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası onu demokratik hüquqi dövlət, insan hüquq və azadlıqlarını isə yüksək dəyər elan etdi. Lakin dövlətin hüquqi elan edilməsi, onun tezliklə bu şəkildə formalaşması demək deyil, çünki bu son dərəcə mürəkkəb vəzifədir və onun həlli yalnız keçmişin ağır irsinin aradan qaldırılması ilə bağlı bütün cəmiyyətin səyi nəticəsində mümkündür.

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin qanunverici, icra və məhkəmə hakimiyyətinə bölünməsi əsasında həyata keçirilməsi, qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarının isə müstəqil olmasına dair müddəanın Əsas Qanunun 7-ci maddəsində əks olunması, Azərbaycanın hüquqi dövlət kimi formalaşmasına istiqamət götürüldüyünü ifadə etmişdir.

Məhz güclü və müstəqil məhkəmə hakimiyyəti hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasının mühüm zəmanətçisidir, çünki o nəinki dövlət hakimiyyətinin digər qollarını nizamlayır və tarazlaşdırır, həm də onlar tərəfindən insanın və vətəndaşın hüquq və azadlıqlarına əməl edilməsinə zamindir, insanın dövlətlə hüquqi mübahisəsində şəxsiyyət azadlığını müdafiə edir, vətəndaş sülh və barışığının bərqərar olunmasına xidmət edir.

Qeyd etmək lazımdır ki, hüquq elmində hamılıqla qəbul edilmuş məhkəmə hakimiyyəti tərifının olmaması, onun məzmununun

dəqiq müəyyən edilməsini xeyli çətinləşdirir və onun çoxmənalı, bəzən isə ziddiyyətli şərhini doğurur.

Məhkəmə hakimiyyəti problemləri əvvəllər milli hüquq elmi üçün ənənəvi deyildi, bu problemlər onun inkişafının əsas istiqamətlərindən kənarda qalırdı. «Məhkəmə hakimiyyəti» anlayışı özü bizim hüquq elminə praktiki olaraq məlum deyildi, çünki məhkəmə orqanları sistemi hakimiyyət anlayışı mövqeyindən deyil, məhkəmə fəaliyyətinin təşkili mövqeyindən nəzərdən keçirilirdi. Buna görə də həmin məsələlərin öyrənilməsi zamanı əsasən ya məhkəmə quruluşu, ya da prosessual məqamlar üstünlük təşkil edirdi ki, bu səbəbdən də məhkəmə fəaliyyətinin konstitusiya məqamı hüquq nəzəriyyəsində ən işlənməmiş məqamlardan biri kimi qalırdı.

Bununla yanaşı, Azərbaycan dövlətinin insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, dövlət tərəfindən cəmiyyət və şəxsiyyətə dair hüquq-mühafizə funksiyalarının yerinə yetirilməsi üzrə fəaliyyətində məhkəmə hakimiyyəti rolunun tədqiqinin aktual olması şübhəsizdir, çünki bu, hüquqi dövlətin bərqərar olmasının əsas istiqamətlərindən birinin öyrənilməsinə ehtiyac duyulduğunu əks etdirir. Özü də «konstitusiya-hüquq vasitələrinin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə təsiri problemlərinin nəzəri cəhətdən dərk edilməsi, birinci dərəcəli əhəmiyyətə malikdir ki, bu da məhkəmə hakimiyyətinin reallaşmasının bütün mexanizminin konstitusiya əsaslarının praktiki həyata keçirilməsi ilə birbaşa əlaqəlidir» (1).

Bu gün hüququ müstəqil dəyər kimi qoruyacaq və müdafiə edəcək güclü məhkəmə hakimiyyəti yaratmağa, kimliyindən asılı olmayaraq, istənilən qeyri-hüquqi vasitələrlə hərəkət etmək cəhdlərini istisna etməyə yönəldilmiş məhkəmə islahatının keçirilməsinə diqqəti zəiflətməmək vacibdir.

Bütün deyilənlər tədqiqatın həm müasir dövrdə məhkəmə hakimiyyətinin reallaşmasının nəzəri-hüquqi əsaslarının hərtərəfli məzmununun, həm də başlıca ədalət mühakiməsi prinsiplərinin və məhkəmə sistemi fəaliyyəti sahəsində Konstitusiya normalarının həyata keçirilməsi xüsusiyyətlərinin təmin edilməsində hüquqi nizamlanmanın xarakterinin tədqiqinin vacibliyini irəlicədən müəyyən edir.

Son vaxtlar bu problemlər hüquq ədəbiyyatında daha geniş işıqlandırılır. Müasir tədqiqatlarda məhkəmə hakimiyyəti hakimiyyətin bölünməsi sisteminin Konstitusiyada öz əksini tapmasının zəruri elementi və hüquqi dövlət şəraitində məhkəmə fəaliyyətinin həyata keçirilməsinin ən mühüm əlamətləri və funksiyalarının əsaslandırılması kimi nəzərdən keçirilir. Məhkəmə Konstitusiya nəzarəti, Konstitusiyanın hüquqi mühafizəsinə həsr olunmuş xeyli əsərlər yazılmışdır.

Məhkəmə hakimiyyəti anlayışının işlənib hazırlanmasına ciddi yanaşmanın başlanması XX əsr 80-ci illərin sonu – 90-cı illərin əvvəlinə təsadüf edir. Bəzi alimlər «məhkəmə hakimiyyəti» anlayışının olmadığını və sovet dövlətinin ağır tarixi ərzində məhkəmə ha-

кimiyyətinin heç vaxt özünə layiq yer tutmadığını, icra hакimiyyəti və hакimiyyətin digər qollarından asılı olduğunu etiraf edərəк, ədalətli olaraq, onun rolunun artırılmasını, ilк növbədə, Konstitusiya nəzarəti və кontrolunu həyata кeçirməк hüququnun yüкsəк məhкəmə orqanlarına verilməsi ilə əlaqələndiriblər.

Bəzi müəlliflər hакimlərin hüquq tətbiqi fəaliyyətinə normativ xaraкter verilməsi məsələsini də məhкəmə hакimiyyəti problеminin işlənib hazırlanmasına aid edirlər кi, bu da hüquq norması anlamını rəsmən müəyyən edilmiş qaydadan кənara genişləndirməli və presedent prosesinin həyata кeçirilməsinə yol açmalı, eləcə də sosial məqsədəuyğun hərəкətlər sahəsində məhкəmə qərarlarına qanunvericiliк təşəbbüsü aкtlarının gücünü verməlidir (2). Qeyd edilən tərəflər, əlbəttə кi, məhкəmə hакimiyyətinin anlaşılmasının mühüm məqamlarına aiddir, laкin mənbələrin çoxluğuna baxmayaraq, indiyədəк onun anlayışı hüquq ədəbiyyatında lazımi dərəcədə işıqlandırılmayıb.

Bəzi müəlliflər məhкəmə hакimiyyətini «ölкədə qanunçuluğun və hüquq qaydasının təmin edilməsi, Konstitusiya quruluşu, siyasi və iqtisadi sistemin, vətəndaşların, dövlət orqanları və digər təşкilatların hüquq və qanuni maraqlarının hər cür qəsdən qorunması məqsədilə cəmiyyətin həyatının hüquqi sahəsində qanuni hüquq tətbiqi səlahiyyətlərinə maliк olma və bu səlahiyyətlərin Konstitusiya, mülкi, cinayət, inzibati məhкəmə quruluşu formasında prosessual qanunlara müvafiq xüsusi dövlət orqanları – vahid məhкəmə sistemi yaradan məhкəmələr tərəfindən həyata кeçirilməsi» (3) кimi nəzərdən кeçirir.

«Rusiya Federasiyasında məhкəmə quruluşu və huquq-mühafizə orqanları» (4) tədris кursunun müəllifləri də məhкəmə hакimiyyətinə eyni tərif verir.

Yuxarıda qeyd edilən tərifin ənənəvi və bir qədər məhdud olduğunu qeyd etməməк olmaz кi, bu da özünü məhкəmə hакimiyyətinin istisna olaraq hüquq tətbiqi кimi anlaşılmasında, bütövlüкdə onun hüquqi xaraкterinə etinasızlıq göstərilməsində biruzə verir.

Son vaxtlar prosessualçı alimlər tərəfindən «ədalət mühакiməsi» anlayışı vasitəsilə «məhкəmə hакimiyyəti» anlayışına tərif verməк, «məhкəmə hакimiyyəti», «məhкəmə» və «ədalət mühакiməsi» anlayışlarının nisbətini göstərməк sahəsində fəal cəhdlər edilir.

Belə кi, A.D.Boyкov güman edir кi, ədalət mühакiməsi məhкəmə iclaslarında hüquq pozuntuları və cinayətкarlıqla mübarizə, hüquq qaydasının möhкəmləndirilməsi, dövlətin maraqlarının, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi məqsədilə çox mühüm dövlət tədbirlərinə dair hamı üçün məcburi olan qərarın (ədalət mühакiməsi aкtının) qəbul edilməsi yolu ilə tətbiqi (və ya tətbiqdən imtina edilməsi) ilə nəticələnən ictimai təhlüкəli hərəкətlər və digər hüquq pozuntularına dair cinayət işləri, eləcə də pozulmuş və ya uğrunda mübarizə aparılan hüquq, yaxud qanunla qorunan marağın müdafiəsi ilə bağlı mülкi işlərə baxılması yolu ilə məhкə-

mə tərəfindən xüsusi prosessual formada həyata keçirilən dövlət fəaliyyətidir. Hərçənd bu tərif bir qədər yayğındır, lakin o, «ədalət mühakiməsi» anlayışının məğzini daha yaxşı əks etdirir.

Z.Z.Zinatulin bu məsələni tədqiq edərək yazır: «Cinayət işləri üzrə ədalət mühakiməsi cinayət prosesi qarşısında qoyulmuş vəzifələrə nail olunması üzrə məhkəmə orqanlarının dövlət fəaliyyəti formasıdır» (6). Yığcamlığına baxmayaraq, bu izah da ədalət mühakiməsi konsepsiyasına aiddir, hərçənd onun fəaliyyəti sahəsini cinayət işlərinin araşdırılması çərçivələri ilə bir qədər məhdudlaşdırır. Ədalət mühakiməsi daha həcmli substansiyadır.

Lakin «ədalət mühakiməsinin məhkəmə hakimiyyətindən daha böyük bir anlam» olduğunu hesab edən V.M.Bozrovla, çətin ki, Razılaşmaq olar (7).

Bizim fikrimizcə, ədalət mühakiməsi – məhkəmə hakimiyyətinin başlıca tərkib hissəsidir. Məhkəmə hakimiyyəti ədalət mühakiməsi vasitəsilə həyata keçirilir. Məhkəmə araşdırması – məhkəmə hakimiyyətinin əsas alətidir ki, onun köməyilə iş üzrə həqiqət müəyyən edilir, proses subyektləri və digər vətəndaşların pozulmuş hüquqları bərpa edilir, qanun və ədalətin qələbəsi təsdiq edilir.

Ədalət mühakiməsi – məhkəmə hakimiyyətinin «sifəti və ruhu», onun məğzidir. Ədliyyəsiz məhkəmə hakimiyyəti yoxdur, eynilə məhkəmə orqanları olmadan ədalət mühakiməsi uydurmadır. Bu mülahizələrə yekun vuraraq belə bir nəticəyə gəlmək olar: ədalət mühakiməsi – məhkəmə hakimiyyətinin, onun konstitusiyasının əsas bələdçisidir.

Məhkəmə hakimiyyəti – yalnız ədalət mühakiməsi deyil. Bu kateqoriyaya bütün məhkəmə sistemi, hakim korpusu, məhkəmələr aparatı, məhkəmələrin yerləşdiyi binalar, təşkilati və ehtiyat təminatı elementləri daxildir. Paradoksal olsa da, məhkəmə hakimiyyətinin vəziyyəti və keyfiyyəti təkcə ədalət mühakiməsinin səviyyəsindən deyil, həm də yuxarıda qeyd edilən, ilk baxışda ikinci dərəcəli görünən amillərdən asılıdır.

Məhkəmə hakimiyyətinin gücü və nüfuzu məhkəmə araşdırmasının prosedur elementlərinin lazımınca işlənib hazırlanmasından çox, dövlət və cəmiyyətin həyat təminatı üçün bu hakimiyyət institutunun vacibliyinin başa düşülməsindən asılıdır.

Məhkəmə hakimiyyətini yalnız münaqişələrin həlli üzrə xüsusi səlahiyyət və ya yalnız məhkəmə orqanları sistemi kimi müəyyən etmək və onlardan birinin daha vacib olduğunu qeyd etmək düzgün olmazdı, çünki cəmiyyətdə münaqişələrin həlli üzrə səlahiyyətlər həmin səlahiyyətlərin verildiyi orqanların sistemindən kənar nəzərdən keçirilə bilməz.

V.A.Lazareva hesab edir ki, məhkəmə hakimiyyətinin dövlət orqanları – məhkəmələrə məxsus hüquq və ədalətli mühakiməni həyata keçirmək imkanı kimi müəyyən etmək olar (8). Bu cür tərif keçmiş sovet ölkələri Konstitusiyasının məzmununa tam uyğun gəlir.

İ.S.Maslikovun fikri də bu nöqteyi-nəzərə yaxındır. O hesab

edir ki, məhkəmə hakimiyyəti – dövlətin Konstitusiya quruluşu, insan və vətəndaşların, dövlət orqanları, idarə və müəssisələr, təşkilat və digər birliklərin hüquq və qanuni maraqlarının müdafiəsi sahəsində hakimiyyət səlahiyyətlərini xüsusi yaradılmış dövlət orqanları – məhkəmələr vasitəsilə qanunla ciddi müəyyən edilmiş prosessual şəkildə həyata keçirən xüsusi fəaliyyət formasıdır (9).

Fikrimizcə, məhkəmə hakimiyyəti anlayışı özündə dövlət tərəfindən vəzifəli şəxslərin müəyyən dairəsinə verilən və məcburiyyət tətbiq etmək vasitəsilə ədalət mühakiməsini həyata keçirmək üçün istifadə edilən, bununla da vətəndaşların və dövlətin hüquq və maraqlarını qoruyub bərpa edən səlahiyyətli funksiyaları vacib element kimi əks etdirməlidir. Hərəkət və qərarlarının arxasında həmişə vəzifəli şəxslərin dayandığı icra hakimiyyəti ilə yanaşı, məhkəmə hakimiyyəti qərarların həm kollegial, həm də fərdi olaraq, yəni hakim vəzifəsini tutan konkret şəxs tərəfindən çıxarılmasında özünü biruzə verə bilər.

Göründüyü kimi, digər orqanlarla yanaşı, məhkəmələrin xüsusi, yalnız onlara məxsus vəzifələri və onların təmin olunma üsulları vardır.

Vəzifələrin spesifikliyi, ilk növbədə, onda ifadə olunur ki, başqa dövlət orqanlarından fərqli olaraq yalnız məhkəmə Konstitusiya, mülki, inzibati, cinayət mühakimə üsulu qaydasında sosial münaqişə və mübahisələrə məhkəmə nəzarəti və baxılması səlahiyyətlərinə malikdir. Spesifiklik həmçinin ondadır ki, məhkəmə qarşısında duran vəzifələri həyata keçirmək üçün hüquq-mühafizə orqanları da cəlb edilir.

Zənnimizcə, «məhkəmə hakimiyyəti» anlayışını tam şəkildə açan elementlərə aid yuxarıda qeyd edilən bütün dəlilləri nəzərə alaraq, ona vəzifəli şəxslər – həmin hakimiyyətin konkret daşıyıcıları kimi tərkib hissəsi də daxil olmalıdır.

Beləliklə, fikrimizcə, məhkəmə hakimiyyəti – dövlət hakimiyyətinin dövlət tərəfindən xüsusi vəkil edilmiş dövlət orqanları – məhkəmələrə verilən, məcburiyyət qüvvəsindən istifadə edilməsi vasitəsilə hüquq-mühafizə funksiyalarının yerinə yetirilməsi üçün ayrı-ayrı vəzifəli şəxslər tərəfindən həyata keçirilən, xüsusi vəzifələrə və onların həyata keçirilməsi üsullarına malik olan xüsusi növüdür.

Məhkəmə hakimiyyəti bir sıra yalnız ona məxsus əlamətlərə malikdir:

- dövlət hakimiyyətinin bir növüdür.
- səlahiyyətləri ilə heç bir digər dövlət orqanları ilə bölüşmür.
- ədalət mühakiməsi yalnız peşəkarlıq əsasında hakim vəzifəsinə təyin etmə proseduru ilə həyata keçirilir.

Həmçinin qeyd etmək lazımdır ki, məhkəmə hakimiyyəti müstəqillik, sərbəstlik və müstəsnalığı ilə xarakterizə edilir. Müəyyən edilmiş prosessual qaydaya ciddi müvafiq şəkildə həyata keçirilir.

İstənilən hakimiyyətin müstəqilliyi onun müstəqilliyinin müəyyən dərəcəsini nəzərdə tutur, lakin yalnız hakimlərin məhkəmə ha-

кimiyyəti daşıyıcıları кimi sərbəstliyi Konstitusiya tərəfindən təsdiq edilib кi, bu da кonstitusiya quruluşu, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi üçün məhкəmə haкimiyyətinin müstəqilliyinin xüsusi əhəmiyyətini vurğulayır. Məhz məhкəmə hakimiyyətinin müstəqilliyinin кonstitusiyada öz əкsini tapması həm də onunla izah edilir кi, ədalət mühaкiməsi təyinatına görə hər hansı bir formada heç кimdən asılı ola bilməz (10). Məhкəmə haкimiyyətinin müstəqilliyindən danışarкən, haкimlərin adı çəкilən müstəqilliyi məhкəmə haкimiyyətinin xaraкteriк xüsusiyyətlərindən biri кimi müəyyən edən zəmanətlərinə dair müddəanı qeyd etməyi zəruri sayırıq. Məhкəmə haкimiyyətinin sərbəstliyi ondan ibarətdir кi, dövlət haкimiyyətinin bu növü dövlət mexanizmi sistemində xüsusi mövqe tutur və bununla da dövlət tənzimlənməsinin ümumi sxemindən, ilк növbədə, ədalət mühaкiməsinin həyata кeçirilməsi üzrə yerinə yetirdiyi vəzifələrin spesifiкliyi ilə seçilir.

Məhкəmə haкimiyyətinin xaraкteriк xüsusiyyətlərinin bu sırasını müstəsnalıq, qanuna tabeliк və bütövlüк кimi xaraкteristiкalarla davam etməк olar.

Belə кi, məhкəmə haкimiyyətinin müstəsnalığı ondan ibarətdir кi, dövlət haкimiyyəti və ya idarəçiliyinin heç bir digər orqanı məhкəmələrin кompetensiyasına daxil olan funкsiya və səlahiyyətləri öz üzərinə götürməк hüququna maliк deyil. Dövlət öz haкimiyyətinin dövlət məcburiyyətini prosessual qaydada tətbiq etməк səlahiyyətlərindən qanuni istifadə etməк hüququnu məhz məhкəməyə etibar edir. Məhкəmə hər hansı şəxsi qanunla müəyyən edilmiş qaydada cinayət törədilməsində müqəssir saymağa, hüquq qaydası mühafizəsinin məcburi vasitələrini tətbiq etməyə, cinayət cəzası təyin etməyə vəкil edilmiş yeganə haкimiyyət orqanıdır.

Məhкəmə haкimiyyətinin qanuna tabeliyi öz əкsini təкcə məhкəmələrin və haкimlərin qanun əsasında hərəкət etməsi, yalnız Konstitusiya və qanunlara tabe olmasında deyil, həm də onun daşıyıcılarının öz fəaliyyətində qanunvericiliк tələblərindən geri çəкilməк hüququna maliк olmamasında tapır.

Məhкəmə haкimiyyətinin bütövlüyü onun həcmi, məhкəmə orqanlarının tətbiq etdiyi qərarların qətiliyi, onların mütləqiliyi ilə müəyyən edilir. Məhкəmənin qanuni qüvvəyə minmiş qərarları və digər aкtları bütün dövlət və yerli özünüidarə orqanları, müəssisələr, vəzifəli şəxslər, vətəndaşlar və onların birliкləri üçün mütləqdir və Azərbaycan Respubliкasının bütün ərazisində şərtsiz icra edilməlidir.

Qeyd olunduğu кimi, hazırda Azərbaycan Respubliкasında məhкəmə fəaliyyətinin həyata кeçirilməsi yalnız xüsusi dövlət orqanlarına – məhкəmələrə etibar edilir. Qanunvericiliкlə səlahiyyətsiz və mənəviyyatsız şəxslərin haкim кorpusuna daxil olmasına yol verməyən xüsusi zəmanətlər sistemi müəyyən edilib; haкimlərdən yüкsəк hazırlıq və peşəкarlıq səviyyəsi tələb olunur.

Məhкəmə haкimiyyəti orqanlarının quruluşunu xaraкterizə edən başlıca amil, onların müstəqilliyini təmin etməк, cəmiyyət və

digər hakimiyyət orqanları tərəfindən hər hansı bir kənar təsirdən onları mühafizə etməkdir.

Yalnız qanunvericiliklə dəqiq müəyyən olunmuş hallarda məhdudlaşdırıla bilən aşkarlıq, kollegiallıq, işlərin araşdırılmasında iştirak edən vətəndaşların bərabər hüquqa malik olması məhkəmə prosedurlarının təməl daşıdır. Qanunverici və icra orqanları üçün müəyyən edilmiş prosedurlar məhkəmə prosedurlarına xas olan hərtərəflilik keyfiyyətinə malik deyil.

Ədalət mühakiməsinin üzərinə cinayət-cəza hərəkətlərində ittiham edilən şəxslərin davranışının hüquqi qiymətləndirilməsi də daxil olmaqla, hüquqa dair meydana çıxan mübahisələrin həlli vəzifəsi düşür. Məhz vətəndaşlar, təşkilatlar, müəssisə və dövlət orqanları üçün icrası məcburi olan qəti qərarlar çıxarmaq səlahiyyəti ədalət mühakiməsinə xüsusi ictimai nüfuz qazandırır və onun həyata keçirilməsi ilə bağlı başlıca problemlərə səbəb olur.

Tarixi təcrübə göstərir ki, dövlət siyasəti demokratiya prinsiplərindən uzaqlaşdıqda, məhkəmə vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi vəzifəsini yerinə yetirmir. Belə olduqda, məhkəmə hakimiyyətinin fəaliyyəti repressiv funksiya ilə məhdudlaşır. Vaxtilə H.Hegel yazırdı: «Vətəndaş cəmiyyətinin üzvü ədalət axtarışı hüququna malikdir və məhkəmə qarşısında durmalı və uğrunda mübarizə apardığı hüququnu yalnız məhkəmə yolu ilə əldə etməlidir» (11).

Ədalət mühakiməsi dövlət idarəçiliyi ilə hüquqlarının pozulduğunu hesab edən vətəndaşlar və onların birlikləri arasında müəyyən vasitəçi kimi çıxış edir. Ədalət mühakiməsi və bütövlükdə hüquq ikili müdafiə vəzifəsini yerinə yetirir: bir tərəfdən dövlət və qanunvericiliyin, digər tərəfdən isə cəmiyyət üzvlərinin maraqlarının müdafiəsi.

«Dövlət-şəxsiyyət» sistemində münasibətlərin korrelyasiyası ilə yanaşı, ədalət mühakiməsi sahəsinə çoxsaylı şəxsiyyətlərarası münaqişələrin həlli də daxildir, buna görə də məhkəmə hakimiyyətinin xarakteristikası üçün «ədalətli məhkəmə – vətəndaş» münasibətləri vacibdir. Bunun gerçəkləşməsi ədalət mühakiməsinin demokratiklik səviyyəsinin əsas göstəricilərindən biridir. Vətəndaş və məhkəmə hakimiyyətinin münasibətlərini müəyyənləşdirən ədalət mühakiməsinin əsasları «vətəndaşların öz maraqlarını müdafiə etmək hüququ»na dair Konstitusiya prinsipinə söykənir. Vətəndaşın hüququ onu məhkəmə müdafiəsi ilə təmin etməyi dövlətin öhdəsinə qoyur.

Məhkəmə hakimiyyəti hakimiyyətin həcmi, qanunda nəzərdə tutulan öhdəliklərin icrası, yaxud onlardan imtina edilməsi ilə bağlı məsələlərin həllində münsiflər məhkəməsi rolunu oynayır. Məhkəmə hakimiyyəti fəaliyyətinin əsas istiqaməti dövlət hakimiyyəti orqanlarının təşəbbüsü ilə sosial və siyasi münaqişələri nəzərdən keçirməkdir. Bu aksiyaların məqsədi münaqişənin inkişafının qarşısını almaq və onu ictimai əhəmiyyət kəsb edən hadisədən məhkəmə prosesinin nisbətən qapalı çərçivəsində araşdırılan konkret

məhkəmə işinə çevirməkdir.

Dövlət hakimiyyətinin qolu olan məhkəmə hakimiyyəti onun bütün əsas əlamətlərinə malikdir. Məhkəmə orqanlarının öz səlahiyyətləri çərçivəsində qəbul etdiyi qərarlar bütün dövlət orqanları, vəzifəli şəxslər və vətəndaşlar üçün mütləqdir. Məhkəmə orqanları müxtəlif cür dövlət cəzaları, o cümlədən, daha sərt cəzalar – azadlıqdan məhrum etmə, azadlığın məhdudlaşdırılması və i.a. tətbiq edir. Məhkəmə hakimiyyətini ictimai münasibətlərin müvafiq sahəsində sosial tənzimləmə forması kimi xarakterizə etmək düzgün olar.

Hakimiyyətin bölüşdürülməsi prinsipi hər bir hakimiyyətin «öz» dövlət fəaliyyəti növünə məlum inhisarını nəzərdə tutur. Lakin qanunvericilik və hakimiyyətin icra qolları arasındakı məlum funksiyalar dolaşığı istisna kimi qəbul oluna bilər. Belə ki, Azərbaycan Respublikası Prezidentinin icra hakmiyyətinin başçısı qismində verdiyi normativ fərmanlar vasitəsilə bir sıra hallarda ictimai həyatın bilavasitə qanunverici tərəfindən tənzimlənməyən məsələləri konkretləşdirir. Məhkəmə hakimiyyətinin əsas funksiyası olan ədalət mühakiməsinin həyata keçirilməsinə gəldikdə isə, o, məhkəmədən başqa hər hansı digər orqan tərəfindən həyata keçirilə bilməz.

Artıq qeyd olunduğu kimi, məhkəmə hakimiyyətinin spesifikası xüsusi prosedurların həyata keçirilməsi, səlahiyyətlərinin prosessual qaydada yerinə yetirilməsindən ibarətdir. Bu, qanunla əsaslı şəkildə müəyyənləşdirilmiş yurisdiksiya fəaliyyətinin daha mürəkkəb formasıdır və onun pozulması halları məhkəmə hökmünün, mülki və ya iqtisadi mübahisələr üzrə qərarların ləğv edilməsi üçün əsas ola bilər. Prosessual fəaliyyət forması xüsusi hüquqi aktlarla – cinayət-prosessual və mülki-prosessual məcəllələri, inzibati qanunvericilik normaları ilə müəyyən edilir. V.M.Fokinin verdiyi tərifə görə, «məhkəmə hakimiyyəti - məhkəmənin həyata keçirdiyi hüquqi səlahiyyətlərdir ki, bu səlahiyyətlər ona prosessual, eləcə də maddi qanunu tətbiq etməklə müəyyən olunmuş prosessual formalara tam müvafiq olaraq səlahiyyətləri çərçivəsində olan işlərin həlli üçün verilib» (12).

Məhkəmə fəaliyyətinin səciyyəvi əlaməti — onun fəaliyyətinə qeyri-adi nəzarət sistemidir. O yalnız məhkəmə qərarlarının qanuniliyinə və məhkəmələrin onları qəbul etmək prosedurlarına əməl etməsinə hüquqi nəzarətdən ibarət ola bilər. Bu, məhkəmə araşdırmasına hər hansı müdaxiləni istisna edir. Belə nəzarət sistemi əsasən daxili xarakter daşıyır.

Məhkəmə hakimiyyətinin gerçəkləşməsi zamanı məhkəmə prosesi, həmçinin tərəflərin təqdim etdiyi, bəzi hüquqi sistemlərdə isə məhkəmənin özünün əldə etdiyi dəlillərin öyrənilməsi və qiymətləndirilməsi gedişində hakimlərin özlərinin gəldiyi qənaət xüsusi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, məhkəmə işə qanun çərçivəsində və üzvlərinin qanunu dərk etmək qabiliyyətinə uyğun şəkildə baxır. Qanun müxtəlif variantları, məsələn, şəxsi məhkum

edərкən azadlıqdan məhrum etmə müddətinin təyin edilməsini seçməк imкanı verir. Heç bir vəzifəli şəxs, heç bir orqan, partiya, birliк və s. haкimlərə təzyiq göstərməк, onları bu və ya digər qərarları qəbul etməyə sövq etməк ixtiyarına maliк deyil.

Məhкəmə haкimiyyətinin əhəmiyyəti, onun cəmiyyətdə rolu, insanlarla və onların birliкləri ilə bilavasitə əlaqəsi haкim vəzifəsinin tutulmasına yüкsəк tələblə yanaşmağı nəzərdə tutur. Haкim peşəкar tələblərə cavab verməli, yüкsəк mənəvi кeyfiyyətlərə və müəyyən həyat təcrübəsinə maliк olmalıdır.

Ümumiyyətlə, dövlət haкimiyyətinin xüsusi qolu кimi məhкəmənin vəziyyəti ziddiyyətlidir. Bir tərəfdən, məhкəmə öz qərarları ilə mövcud qayda-qanunu dəstəкləyir və möhкəmləndirir, bununla da cəmiyyət üzərində dövlət nəzarətini təmin edir. Digər tərəfdən, məhкəmə bütövlüкdə mövcud qayda-qanunu qorumaqla кonкret fərdin hüquqlarını müdafiə edir. Bununla da məhкəmə dövlətin səlahiyyətlərini məhdudlaşdırır, qanundanкənar hərəкətlərə yol verildiyi hallarda özünü dövlətə, onun idarələrinə qarşı qoyur, şəxsiyyət azadlığını qoruyur və demoкratiyanı müdafiə edir.

Məhкəmə mübahisələri həll etməкlə, cəmiyyətdə sosial normaları dəstəкləməкlə, müqavilələri vicdanla yerinə yetirməyə məcbur etməкlə, borc və vergilərin ödənişini tələb etməкlə cəmiyyətdə iqtisadi sabitliyi möhкəmləndirir.

Məhкəmə haкimiyyətə qeyri-qanuni qəsd etmə cəhdlərini cəzalandırmaqla siyasi sabitliyi qoruyur, vətəndaşları cəmiyyətdə qəbul edilmiş davranış qaydalarına, sadə insani dəyərlərə əməl olunmasına cəlb etməкlə əhəmiyyətli tərbiyəvi rol oynayır.

Dövlət haкimiyyətini xüsusi formada gerçəкləşdirən məhкəmə qanunverici və icra haкimiyyətinin maliк olmadığı səlahiyyətlərə maliкdir. O qanun əsasında insanı azadlıqdan məhrum etməк, fiziкi və hüquqi şəxsin əmlaкını müsadirə etməк, siyasi partiyanın fəaliyyətini dayandırmaq, valideyn adını daşımağa layiq olmayan ata-anaları valideynliк hüququndan məhrum etməк və s. hüquqlara maliкdir. Ayrı-ayrı şəxslərə, yaxud birliкlərə dair belə кonкret qərarları nə qanunverici, nə də icra haкimiyyəti qəbul edə bilməz.

Yuxarıda qeyd edilənlərdən məlum olduğu кimi, məhкəmə haкimiyyəti çoxcəhətlidir. Bütün bu tərкib hissələri birliкdə məhкəmə haкimiyyətinin əsasını təşкil edir, haкimiyyətin digər qolları arasında onun yerini və hüquqi statusunu müəyyən edir. Təsadüfi deyil кi, bir çox müəlliflər məhкəmə haкimiyyəti anlayışına birbaşa tərif verməкdən çəкinir. Y.İ.Stetsovsкi yazır кi, «Məhкəmə haкimiyyətinin məqsədi insan haqlarının təmin edilməsi, qanunverici və icra haкimiyyətinin hərəкət və qərarlarının qanuna uyğunluğuna nəzarət edilməsidir» (13). Y.İ.Stetsovsкi məhкəmə fəaliyyətini dar hüquq normaları çərçivəsində məhdudlaşdırmır. O, məhкəmənin «qanuna müvafiqliyə» nəzarəti həyata кeçirməк vəzifəsindən bəhs edir. Bu da, zənnimizcə, məhкəmə haкimiyyətinin müasir inкişaf istiqamətlərinə cavab verir.

## ƏDƏBİYYAT

1. Ржевский В.А., Чепурнова А.М. Судебная власть в Российской Федерации: Конституционные основы организации и деятельности. М., 1998, с. 3.
2. Мушинский В.О. Соотношение политики и права в регулировании социальных интересов // Советское государство и право, 1988, № 2, с. 11.
3. Тихомирова Л.В., Тихомиров М.Ю. Юридическая энциклопедия. М, 1997, с. 431.
4. Судоустройство и правоохранительные органы в Российской Федерации. М., 1996, с. 30.
5. Курс советского уголовного процесса / Под ред. А.Д. Бойкова, И.И. Карпеца. М.,1998, с.26-27.
6. Зинатулин З.З. Уголовно-процессуальные функции. Ижевск, 1996, с. 57.
7. Бозров В.М. Современные проблемы российского правосудия по уголовным делам в деятельности военных судов. Екатеринбург, 1999, с. 12-13.
8. Лазарева В.А. Судебная власть и ее развитие в уголовном процессе. Самара. 1999, с. 11.
9. Масликов И.С. Судебная власть в государственном механизме Российской Федерации: Автореф. дис. ... канд. юрид. наук. М., 1997, с. 11.
10. Лебедев В.М. Проблемы становления и развития судебной власти в РФ: Автореф. дис ... докт. юрид. наук. М., 2000, с. 16
11. Гегель Г. Философия права. М, 1990, с. 258.
12. Фокин В.М. Правоохранительные органы Российской Федерации. М., 1999, с. 31.
13. Стецовский Ю.И. Судебная власть. М., 1999, с. 54.

## ПОНЯТИЕ И ПРИЗНАКИ СУДЕБНОЙ ВЛАСТИ

С.И.БЕКТАШИ

### АННОТАЦИЯ

В представленной статье судебная власть рассматривается как многогранное явление. Утверждается, что такой подход позволяет всесторонне раскрыть сущность судебной власти, определить ее место и статус среди других ветвей государственной власти. Отмечается, что только сильная и независимая судебная власть является важнейшей гарантией формирования правового государства и гражданского общества, поскольку она не только сдерживает и уравновешивает другие ветви государственной власти, но и является гарантом соблюдения ими прав и свобод человека и гражданина, служит установлению гражданского согласия.